**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş Nazirinin
birinci müavini Yaqub Eyyubov

08.07.2019-cu il

**Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üzrə bəzi tikinti obyektlərinin tikintisi və istismarına icazələrin verilməsi sahəsində islahatlarla bağlı 2019-cu ilin II yarımilliyi üçün İcra və Kommunikasiya Planı**

| Sıra №-si | Görüləcək işlər | İcraçı qurumlar | İşçi qrupu üzrə məsul şəxslər | Hədəf qrupları (benefisiarlar) | Son icra müddəti |
|---|---|---|---|---|---|
| **1.** | **“Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 28.12.2018-ci il tarixli 460 nömrəli Fərmanının icrası ilə bağlı inzibatçılığın təkmilləşdirilməsi və genişləndirilməsi sahəsində (qarşıya çıxan texniki problemlərin aradan qaldırılması, aidiyyəti qurumlarla inteqrasiyanın təşkili, elektron sistemin imkanlarının genişləndirilməsi və s.)** | | | | |
| 1.1. | Bakı şəhəri üzrə istifadə edilən “Bir pəncərə” sisteminin “Lisenziyalar və icazələr” və “Elektron hökumət” portallarına köçürülməsinin təmin edilməsi | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi | A.İsgəndərov H.Şükürov T.Yəhyayev | Aidiyyəti dövlət orqanları | 29.11.2019-cu il |
| 1.2. | Bakı şəhəri üzrə istifadə edilən “Bir pəncərə” sisteminin ölkə üzrə tətbiqinin genişləndirilməsi üçün yerli icra hakimiyyəti orqanlarının həmin sistemə inteqrasiyası üzrə müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | D.Dövlətxanov T.Yəhyayev A.İsgəndərov H.Şükürov yerli icra hakimiyyəti orqanlarının nümayəndələri | Yerli icra hakimiyyəti orqanları | 15.12.2019-cu il |
| 1.3. | Tikinti obyekti üzərində əmlak hüququnun qeydiyyata alınması prosesinin sürətləndirilməsi məqsədilə daşınmaz əmlakın dövlət reyestrini aparan qurumun Bakı şəhəri üzrə istifadə edilən “Bir pəncərə” sisteminə inteqrasiyasının təmin edilməsi | Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Ş.Abdullayev A.İsgəndərov H.Şükürov | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | 30.10.2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.4. | Ölkə üzrə ekspertizası tələb olunan obyektlərin tikintisinə icazə üzrə elektron müraciət sistemi üçün texniki tapşırığın hazırlanması | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | M.Fətullayev<br>A.İsgəndərov<br>H.Şükürov<br>Z. Rzayeva | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | 15.12.2019-cu il (sonradan davam edəcək) |
| 1.5. | Tikintiyə icazə üzrə yeni rəqəmsal elektron sistem (bundan sonra – yeni elektron sistem) barədə ingilis və Azərbaycan dillərində qısa icmal məlumatın (infoqraflarla, video-çarxlarla) hazırlanması, beynəlxalq və yerli təşkilatların mətbuat bölmələrində və KİV-də yayımlanması ilə bağlı tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>İ.Mehti<br>Z.Rzayeva | Sahibkarlıq subyektləri | 01.11.2019-cu il |
| 1.6. | Yeni elektron sistemin müvafiq beynəlxalq təşkilatların beynəlxalq mükafatına namizəd kimi ***(“Azərbaycanın uğurlu təcrübəsi”)*** təqdim olunması imkanlarının araşdırılması və bu sahədə tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>İ.Mehti | Sahibkarlıq subyektləri | 01.11.2019-cu il |
| 1.7. | Yeni elektron sistemin aidiyyəti beynəlxalq təşkilatların tədbirlərində təqdimatlarının keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>Z.Rzayeva<br>İ.Mehti | İctimaiyyətin bütün təbəqələri | 01.12.2019-cu il |
| 1.8. | Yeni elektron sistemə dair ***“Tikintiyə icazə üzrə yeni rəqəmsal sistem Azərbaycanda”*** şüarı altında Azərbaycan və ingilis dillərində bilbordların hazırlanması və müvafiq yerlərdə (o cümlədən, “Heydər Əliyev” Beynəlxalq Aeroportunda, Bakı Beynəlxalq Avtovağzal Kompleksində, ASAN xidmət mərkəzlərində, Əmlak Xidmətləri Məkanında, Vergilər Nazirliyinin xidmət mərkəzlərində, Dövlət Miqrasiya Xidmətinin xidmət mərkəzlərində, KOB evlərində, biznes mərkəzlərində və s.) yerləşdirilməsi üçün tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>İ.Mehti | Sahibkarlıq subyektləri | 01.11.2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.9. | 2019-cu ilin birinci yarımilliyi üzrə yeni elektron sistemin tətbiqi nəticələrinin təhlilinin aparılması, sahibkarlar arasında müvafiq sorğuların keçirilməsi, onların rəy və təklifləri nəzərə alınmaqla bu sahədə mövcud vəziyyətin qiymətləndirilməsi və nəticələri üzrə müqayisəli arayış hazırlanmaqla təkliflərin verilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Sahibkarlıq subyektləri | 01.10.2019-cu il |
| 1.10. | İcra və Kommunikasiya Planının 1.9-cu bəndinə uyğun olaraq verilən təkliflər əsasında yeni elektron sistem vasitəsilə müraciət edənlərin xüsusi çəkisinin artırılması üzrə tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>Z.Rzayeva<br>İ.Mehti | Sahibkarlıq subyektləri | 01.11.2019-cu il |
| **2.** | **Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və bu sahəyə məsul şəxslərlə iş sahəsində** | | | | |
| 2.1. | Tikintiyə icazə və tikinti obyektlərinin istismarına icazə verilməsi işinin İcra və Kommunikasiya Planının 1-ci bəndində qeyd olunan Fərmanla müəyyən edilmiş qaydada göstərilmiş tələblərə və müddətlərə uyğun təşkilinin təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Tikinti sahəsi üzrə aidiyyəti dövlət qurumlarının əməkdaşları | Mütəmadi |
| 2.2. | Yeni elektron sistemin əsas xüsusiyyətləri və ötən dövrdə əldə olunan təcrübələr mövzusunda təqdimatın hazırlanması, aidiyyəti orqanlarının əməkdaşları üçün seminarların/treninqlərin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Tikinti sahəsi üzrə aidiyyəti dövlət qurumlarının əməkdaşları | 01.10.2019-cu il<br><br>01.11.2019-cu il |
| 2.3. | “Bir pəncərə” sisteminin ölkə üzrə tətbiqinin genişləndirilməsi məqsədilə yerli icra hakimiyyəti orqanlarının tikintiyə icazə verilməsi ilə əlaqəli məsul əməkdaşları üçün müvafiq maarifləndirici tədbirlərinin keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları | D.Dövlətxanov<br>T.Yəhyayev<br>M.Fətullayev | Rayon və şəhər icra hakimiyyəti orqanlarının məsul işçiləri | Oktyabr-dekabr 2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.4. | Aparılmış islahatlarla bağlı təchizat müəssisələri tərəfindən Bakı şəhərində və regionlarda aidiyyəti məsələlərlə bağlı maarifləndirmə işlərinin aparılması üçün müvafiq tədbirlərin görülməsi və nəticəsinə dair hər ayın sonunda Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə məlumatların verilməsi | “Azərsu” ASC, “Azərişıq” ASC, “Azəriqaz” İB | N.Quliyev<br>M.Cəfərli<br>M.Cəbrayılov<br>A.Göyüşov | Yerli təchizat müəssisələrinin müvafiq əməkdaşları | Avqust-oktyabr 2019-cu il |
| 2.5. | Yeni elektron sistem üzrə tez-tez verilən suallar/cavablar və əsas xüsusiyyətlərə dair qısa icmalların hazırlanması və stolüstü sənəd kimi istifadə olunması məqsədilə aidiyyəti qurumların əməkdaşlarına çatdırılması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, “Azərsu” ASC, “Azərişıq” ASC, “Azəriqaz” İB | Bütün qrup üzvləri- müvafiq fəaliyyət sahələri üzrə | Qeydiyyat, uçot, xidmət, o cümlədən çağrı mərkəzlərinin əməkdaşları | 01.10.2019-cu il |
| **3.** | **Sahibkarlıq subyektləri ilə kommunikasiya və məlumatlandırma sahəsində** | | | | |
| 3.1. | 2019-cu ilin birinci yarımilliyində yeni elektron sistem üzrə sahibkarlıq subyektləri üçün aparılan təlim/görüşlərin nəticələrinin təhlil olunması, bu sahədə məlumatların daha uyğun formada operativ çatdırılması və kommunikasiyanın daha da təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanaraq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim olunması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | Bütün qrup üzvləri- müvafiq fəaliyyət sahələri üzrə | Sahibkarlıq subyektləri | 15.09.2019-cu il |
| 3.2. | Bəzi tikinti obyektlərinin tikintisi və istismarına icazələrin verilməsi sahəsində aparılmış islahatlar barədə sahibkarlıq subyektlərinin daha geniş məlumatlandırılması üçün onları təmsil edən ictimai birliklər/biznes assosiasiyalarının və müvafiq koordinatorların siyahısının hazırlanaraq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim olunması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | İ.Mehti<br>F.Qəşəmov<br>M.Rzayeva<br>T.Hacıyeva | Sahibkarların ictimai təşkilatları | 15.08.2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.3. | İcra və Kommunikasiya Planının 3.2-ci bəndinə uyğun olaraq hazırlanmış siyahı əsasında ictimai birliklər/biznes assosiasiyalarının nümayəndələri ilə görüşlərin keçirilməsi, aparılmış islahatların üstünlükləri barədə məlumatın verilməsi, bu sahədə mövcud problemlər və təkmilləşmə imkanlarının müzakirəsi və nəticələri ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim olunması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>Z.Rzayeva<br>İ.Mehti<br>F.Qəşəmov<br>M.Rzayeva<br>T.Hacıyeva | Sahibkarların ictimai təşkilatları | 20.10.2019-cu il<br>15.11.2019-cu il<br>15.12.2019-cu il |
| 3.4. | Bəzi tikinti obyektlərinin tikintisi və istismarına icazələrin verilməsi üzrə aparılmış islahatlarla bağlı məlumatlandırma, eləcə də tikintiyə icazələrin verilməsi icraatı çərçivəsində məlumatlılıq səviyyəsinin artırılması üçün görüşlərin keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, yerli icra hakimiyyəti orqanları | D.Dövlətxanov<br>T.Yəhyayev<br>Z.Rzayeva<br>İ.Mehti<br>F.Qəşəmov<br>M.Rzayeva<br>T.Hacıyeva | Tikinti təşkilatları | Sentyabr-noyabr 2019-cu il |
| 3.5. | Sahibkarlıq subyektlərinin tikintiyə icazələrin verilməsi icraatı ilə bağlı məlumatlılıq və məmnunluq səviyyəsinin ölçülməsi üçün onlar arasında sorğunun keçirilməsi üzrə müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | D.Dövlətxanov<br>İ.Mehti | Tikinti təşkilatları | 31.10.2019-cu il |
| **4.** | **Aparıcı hüquq (konsaltinq) şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə kommunikasiya və məlumatlandırma sahəsində** | | | | |
| 4.1. | Bəzi tikinti obyektlərinin tikintisi və istismarına icazələrin verilməsi sahəsində aparılmış islahatlar barədə məlumatlandırmanın aparılması məqsədilə aparıcı hüquq/konsaltinq şirkətlərinin və onlarda tikintiyə icazə məsələləri ilə məşğul olan əməkdaşların siyahısının hazırlanaraq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim olunması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | İ.Mehti<br>F.Qəşəmov<br>M.Rzayeva<br>T.Mustafayeva | Aparıcı hüquq/konsaltinq şirkətləri | 01.09.2019-cu il |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.2. | İcra və Kommunikasiya Planının 4.1-ci bəndinə uyğun olaraq hazırlanmış siyahı əsasında aparıcı hüquq/konsaltinq şirkətlərinin nümayəndələri ilə görüşlərin keçirilməsi, aparılmış islahatların üstünlükləri barədə məlumatın verilməsi, bu sahədə mövcud problemlər və təkmilləşmə imkanlarının müzakirəsi və nəticələri ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim olunması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>Z.Rzayeva<br>İ.Mehti<br>F.Qəşəmov<br>M.Rzayeva<br>T.Hacıyeva | Aparıcı hüquq/konsaltinq şirkətləri | 10.10.2019-cu il<br>10.11.2019-cu il |
| 4.3. | Azərbaycan Respublikasında fəaliyyət göstərən Dünya Bankı komandasının əməkdaşlıq etdiyi konsaltinq şirkətləri ("Big 4") ilə tikintiyə icazələrin verilməsi sahəsində əməkdaşlığın davam etdirilməsi və gücləndirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov<br>T.Yəhyayev<br>Z.Rzayeva<br>İ.Mehti | Konsaltinq şirkətləri | Mütəmadi |
| **5.** | **Aparıcı kütləvi informasiya vasitələri və digər media qurumları ilə kommunikasiya və məlumatlandırma sahəsində** | | | | |
| 5.1. | Obyektlərin tikintisi və istismarına icazələrin verilməsi üzrə aparılmış islahatlarla bağlı məlumatların sosial şəbəkələr və internet xəbər səhifələri vasitəsilə ictimaiyyətə (kütləvi informasiya vasitələrinə) çatdırılması üzrə tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | İşçi qrupun bütün üzvləri | Kütləvi informasiya vasitələri, sosial şəbəkələr və internet xəbər səhifələri | 30.08.2019-cu il<br>11.11.2019-cu il<br>Mütəmadi |
| 5.2. | Bakı şəhərində "Bir pəncərə" prinsipi üzrə icazələrin verilməsi ilə tanışlıq məqsədilə press-turun keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov | Kütləvi informasiya vasitələri, o cümlədən qəzet və jurnallar | 30.08.2019-cu il |